*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 fevral 2020-ci il № 12 (2430) Qiymәti 30 qəpik

*Ön xətdən reportaj*

## Müqəddəslik zirvəsidi




*Soyuq bir qış günündə getdiyim dolanbac yollar xatirələrimin şahididir. O xatirələr ki, gözümdə bir-bir canlanır. Bu yolda xatırlaya biləcəyim ən unudulmaz gün 8 il öncə hərbi xidmətə yollandığım gündür. Yaz idi... Təbiətin oyandığı çağlarda bu yoldan keçmək və cərgə ilə düzülən ağacların bir-birini sürətlə əvəz etməsi ömür qatarının dayanmadan irəliləməsi kimi idi. Qışdır... Ətraf aləm ağ örpəyə bürünüb. Bu gözəlliyi seyr etməyin də bir ayrı könül xoşluğu verdiyini qeyd etmək lazımdır. Gözəl Vətənimin gözoxşayan təbiətini izləyərkən Əşrəf Günaydının sözləri yadıma düşür. "Bu keçib-gedən ömürdə xatirələri yada salmaq yaşamağı uzatmaqdır, yoxsa qısaltmaq?.." Xatirələrimi cuşa gətirən, ilk nizami addımları atdığım hərbi hissədə əsgərlərlə görüş zamanı bu suala cavab tapacağımı düşünürəm.*

... Hərbi hissədəyik. Nəzarət-buraxılış məntəqəsindən hərbi hissəyə daxil olar-olmaz səliqə-sahmanı, nizam-intizamı sezməmək mümkün deyil. Bu gün orduda çətin dağlıq şəraitdə yerləşən hərbi hissə və bölmələrimizdə əsgərlərimizin xidməti üçün lazım olan bütün şərait yaradılıb. Hərbi hissəyə çatar-çatmaz vaxt itirmədən səngərə yollanırıq.

Çətin keçilən qarlı dağ yolları, yolboyu uzanan sıx meşələrə nəzər salıram. Yamacda bir-birinə söykənən iki ağac diqqətimi cəlb edir. Sanki illər boyu bir-birilərinə dayaq ola-ola ucalıb, illərin verdiyi töhfə ilə dostlaşıblar. Ağacların bir-birinə söykənməsini bir azdan görüşəcəyimiz əsgərlərin dostluğu kimi düşünürəm. Bu düşüncələrin ağuşunda ön xətdə yerləşən mövqelərimizə gəlib çatırıq. Güvənc yerimiz, qürurumuz, ön xətdə düşmənin gözünə dik baxan oğullarımızla görüşməyin sevincini yaşayıram. Əsgərlərin Vətən sevgisinin təzahürü olan söhbətlər Azərbaycan Ordusunun hər bir nümayəndəsinin xalqına, millətinə bağlı olduğunun göstəricisidir. Döyüş mövqeyində ilk həmsöhbətimiz baş leytenant Elgün İsmayılov olur. Bir neçə ildir ön xətdə xidmət edən zabit Vətən sevgisinin onun peşə seçimində xüsusi əhəmiyyət kəsb etdiyini bildirir:

- Gördüyünüz kimi, hər yer qardır. Hava şəraitinin yaratdığı çətinliklərə baxmayaraq, zabit və əsgərlərimiz cəbhə bölgəsində xidmət etməkdən qürur duyurlar. Səngər dedikdə, o dəqiqə çətinlikləri olan xüsusi bir məkan adamın nəzərində canlanır. O məkan ki, orada qəhrəmanlar tarix yazır. Burada xidmət etmək çox məsuliyyətli və şərəflidir. Bütün əsgərlərimiz mərd və qorxmazdır. Onlar anlayırlar ki, əsla qarşı tərəfə görüntü verməməli və düşməni daima müşahidədə saxlamalıdırlar. Çox sevindirici haldır ki, bu gün ordu sıralarına qatılan hər bir əsgər ön xətdə xidmət etmək arzusundadır. Düşünürəm ki, bütün bunlar Vətən sevgisinin, vətənpərvərlik ideyalarının cəmiyyətdə düzgün təbliğ olunmasının nəticəsidir. Mən də öz növbəmdə döyüş postuna yeni təyin olunan əsgərlərlə mənəvi-psixoloji söhbətlər aparır, burada olmağımızın əsas məqsəd və məramını izah edirəm. Polkovnik Abdulla Qurbaninin müsahibələrindən birində dediyi və yaddaşıma həkk olunan "Cavanlardan atir yox, barıt, səngər iyi gəlməlidir" ifadəsini deməyim kifayət edir ki, əsgər burada mətin durmağının vacibliyini dərk edir".

"Ön xətdə xidmətə yeni gələn əsgərləri ilk olaraq necə təlimatlandırırsan?" - sualına gənc komandir cavab verərək bildirir: "Bu çətin və təhlükəli mövqelərdə xidmət etmək, doğrudan da, hər kəsdən cəsarətli və qətiyyətli olmağı tələb edir. Əgər əsgərin ürəyi Vətən sevgisi ilə döyünürsə, onu heç nə sarsıda bilməz. Əsgər də Vətənimizin bir övladıdır, vətəndaş olaraq öz məsuliyyətini dərk edir və yaxşı bilir ki, bu gün ona torpaqlarımızın düşmənlərdən qorunması kimi ən müqəddəs bir vəzifə etibar edilib".

Söhbət etdikcə ətrafa nəzər salıram: hər kəsin geyimi, səliqə-sahmanı göz oxşayır. Dağ-meşə şəraitində, müxtəlif infrastrukturlardan kifayət qədər uzaq bir məsafədə yerləşən döyüş mövqeyində bu qədər səliqəli qalmaq asan iş deyil. Sözün əsl mənasında, döyüş mövqeyində gördüklərimizdən bu qənaətə gəldik ki, şəxsi heyətin sosial ehtiyacları və gündəlik tələbat normaları ilə yanaşı, bütün cəbhə boyu ön xətdə döyüş növbətçiliyinə çıxarılmış silah və döyüş texnikası, nəqliyyat vasitələri qış dövründə fasiləsiz və dayanıqlı istismara hazır vəziyyətə gətirilib.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycanın Müdafiə naziri NATO-nun toplantısında iştirak edib



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov fevralın 13-də Brüssel şəhərində NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasına töhfə verən dövlətlərin müdafiə nazirləri səviyyəsində təşkil edilən toplantısında iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Əfqanıstandakı təhlükəsizlik və siyasi vəziyyət, əldə olunan son nailiyyətlər, missiyanın gələcəyi və bir sıra digər məsələlər müzakirə olunub.



# Müqəddəslik zirvəsidi Vətən sevgisi

(Əvvəli 1-ci səhifədə)

Kiçik çavuş Hikmət Həsənov müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra taleyini orduya bağlayanlardandır. O da ürəyi Vətən eşqiylə döyünən xalqımızın bir nümayəndəsi kimi Qarabağ həsrətindədir.

- Səngərdə xidmət etmək çətin olsa da, şərəflidir. Köksümüzdə Qarabağ həsrəti, Şuşa nisgili var, - deyə kiçik çavuş söhbətə başlayır. - Bu gün döyüş mövqelərində müvəqqəti müdafiədə dayanmışıq. Vətəni müdafiə edə bilmək üçün birinci özünü, əsgər yoldaşını qorumalısan. Əgər özünü, əsgər yoldaşlarını qoruya bilməsən, onda torpağını necə qoruyarsan? Bu səbəbdən hər an ayıq-sayıq, diqqətli xidmət aparırıq. Düşmənin bütün fəaliyyətini nəzarət altında saxlayırıq. Müşahidə zamanı aşkar olunmuş ən adi bir hərəkəti belə yuxarı komandanlığa məruzə edirik. Hər gün baş leytenant Elgün İsmayılov təlimat keçəndə bütün bunları xatırladır.

Döyüş növbətçiliyindən qayıdan əsgər Sərvan İsrafilovla söhbətimiz isə əsgər həyatı, məişət şəraiti və günün nizam qaydası ilə bağlı olur: "Hərbi xidmətə gələnə qədər əsgər həyatından məlumatım az idi. Əsgərlər üçün yaradılan şəraiti görəndə, həqiqətən də, ordumuzun xüsusi diqqət və qayğı ilə əhatə olunduğuna bir daha əmin oldum. Yaradılan şəraiti daha da gözəlləşdirən komandirlərimizin isti və səmimi münasibətidir. Dərslər və təlimlər zamanı komandirlər Vətənimizin hərb tarixindən, şəhidlərimizin qəhrəmanlığından söhbətlər edir, Mübariz, Fərid, Çingiz kimi qəhrəmanların örnək həyatından danışırlar. Bununla yanaşı, günün nizam qaydasına uyğun olaraq səhər və axşam fiziki hazırlıq məşğələləri keçirilir. Dərs və təlimlər bizim hər an döyüşə hazır olmağımız üçündür. Necə ki, Aprel döyüşlərində hazırlıqlı ordumuz qətiyyətli qələbə ilə bu inamı doğrultdu. Biz işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad edəcəyik".

...Növbəti döyüş mövqeyinə gedirik. Baş leytenant Elgün İsmayılov bir azdan həmsöhbət olacağımız əsgər haqqında söz açır.

- Əsgər Elşən Abdullayev nizam-intizamı, tərbiyəsi və hərb sənətinə olan xüsusi sevgisi ilə diqqəti cəlb edən vətənpərvər əsgərdi. Hər döyüş növbəsinə yollananda ona fikir verirəm. Elə həvəslə hazırlaşır ki, sanki az sonra döyüş əmri veriləcək və Qarabağa üz tutacaq. Sonra düşünürəm ki, Elşənin etdiyini hər bir əsgər etməlidir, çünki döyüş əmri hər an verilə bilər...

Komandirin əsgəri haqqında dediyi bu fikirlər mənə Çingiz Qurbanovun komandiri olan polkovnik-leytenant Rüstəm Məmmədovun Çingiz haqqında dediklərini xatırladır: "Nümunəvi əsgərdi, vətənsevərdi, cəsarətlidi." Bu sözlər qəhrəmanımızın doğum günündə keçirilən tədbirdə deyilmişdi. Bəlkə də bir azdan Azərbaycan tarixinə qəhrəmanlığı ilə iz qoyacaq bir əsgərlə - Elşən Abdullayevlə həmsöhbət olacam deyə düşünürəm....

...Döyüş mövqeyindəyik... Əsgər Elşən Abdullayevlə salamlaşırıq. Elşənə komandirinin onun haqqında dediklərindən söz açıram. Gülümsəyir, qızrələnir, fərəhlənir...

- Xidmətə gələn gündən məsuliyyətli olmağı, üzərimə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlməyi özümə söz vermişəm. Cəbhə xəttində xidmət etmək arzum olub. Çətin təbii şəraitdə və təhlükəli mövqelərdə döyüş növbətçiliyini həyata keçirmək son dərəcə məsuliyyətli olmağı tələb edir. Üzərimə düşən məsuliyyətin ağırlığını yaxşı dərk edirəm. Döyüş növbəsində sayıqlığımı itirmədən xidmət aparıram. Düşmən mövqelərini bir an belə nəzarətsiz qoymuram. Bilirəm ki, düşmən xaindir, hər an təxribat törətməyə məqam gözləyir. Düzdür, düşmənə daim nəzarət edirik, lakin onlardan da qorxmuruq, istənilən təxribatın qarşısını almağa, torpaqlarımızı yağılardan təmizləməyə hər an hazırıq.

Elşənin fikirləri komandirinin sözlərinin təsdiqiydi. Onun timsalında Vətəndə doğulub, Vətən üçün yaşayan bütün oğullarımızı, o cümlədən Azərbaycanımızı düşünürəm. Fikirlərim gah Qarabağa, gah Kəlbəcərə, gah da Şuşaya yollanır... Həsrət çəkən Qarabağım bu qarlı dağlardan cığır açaraq sənə qovuşacaq, o zaman bütövləşəcəyik... Elşənlər, Elgünlər, Hikmətlər qovuşduracaq bizi... Düşüncələr burulğanında əsgər Bəybala İsrafilovun yanına çatırıq.

Bəybala da əsgər yoldaşları kimi düşmən üzərinə atılmaq üçün əmr gözləyir. Söhbətimizin əsas məğzi də elə bu çərçivədə oldu.

- Bir gənc kimi düşmənlə üz-üzə mövqelərdə xidmət aparmaq mənim üçün qürurvericidir. Vətən bizim anamızdır. Vətənimizi anamız tək sevməli və qorumalıyıq. Mən də əsgər dostlarım kimi ön xətdə xidmət etməyimlə fəxr edirəm. Bununla yanaşı, məni üzən, incidən məqamlar da var. Hər dəfə döyüş növbətçiliyinə çıxanda silahın nişangahından işğalda olan torpaqlarımıza baxıram. Torpağımıza, ata-baba yurdumuza düşmənin ayaq basması məni özümdən çıxarır. Çox istərdim ki, tezliklə Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı düşmənlərdən azad edək. Bu qələbədə mənim də kiçik payım olsun, - deyə əsgər Bəybala İsrafilov deyir.



Əsgərlərimizi dinlədikcə qürurlanıram, fərəhlənirəm. Çox böyük sevincdir azərbaycanlıyam demək, dövlətinlə, ordunla fəxr etmək. Əbəs yerə deməyiblər ki, torpaq qanla qarışanda Vətən olur. Biz bu şücaəti, qəhrəmanlığı tarix boyu göstərmişik. Qədimdən azadlıq, müstəqillik uğrunda savaşlar aparmış, heç zaman döyüş meydanından qaçmamışıq. Ərazi bütövlüyümüz uğrunda şəhidlər vermişik, zəfərlər qazanmışıq. Düşmən yaxşı bilir ki, Azərbaycan əsgərinin ən güclü silahı Vətən sevgisidir.

Dağ boyu uzanan qarlı yolları geri qayıdırıq. Yenə də bir-birinə söykənən iki ağacı görürəm. Bu zaman ağlıma Hikmət, Elşən və digər əsgərlər gəlir. Onlar da bir-birilərinə dayaqdı. İllər keçəcək, onlar da bir-birilərini xatırlayacaq, çiyin-çiyinə düşmənlə üz-üzə dayandıqları bugünkü inamı, dostluğu ürəklərində bir daha hiss edəcəklər. Bəlkə də mənim kimi Əşrəf Günaydının xatirələrlə bağlı dediklərini düşünəcəklər. "Bu keçib-gedən ömürdə xatirələri yada salmaq yaşamağı uzatmaqdır, yoxsa qısaltmaq?.." Ürəklərində hiss etdikləri inam və dostluqla bu keçib-gedən ömürdə xatirələri yada salmaq, yaşamağı uzatmaqdır deyəcəklər.

**Kapitan**
**Ceyhun CƏFƏRLİ,**
**leytenant**
**Oruc MUSTAFAYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb

NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***14 fevral 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Acarlı, Mərzili, Füzuli rayonunun Qərvənd kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə nazirinin müavini Avropa İttifaqının xüsusi nümayəndəsi ilə görüşüb

Fevralın 14-də Azərbaycan Respublikasının Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində və dövlət sərhədindəki hazırkı vəziyyətə dair fikir mübadiləsinin aparıldığı görüşdə nazir müavini beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 faizinin Ermənistanın işğalı altında olduğunu və danışıqlar prosesinin bu günədək nəticəsiz qaldığını bir daha xatırladıb.

Nazir müavini vurğulayıb ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin nizamlanması ilə bağlı danışıqlarda tərəqqinin əldə edilməsinə əsas maneədir.

T.Klaar da öz növbəsində Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması üçün münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin vacibliyini qeyd edərək bildirib ki, Avropa İttifaqı bu istiqamətdə danışıqların davam etdirilməsinin tərəfdarıdır.

# Ermənistan XİN-in son bəyanatı iki ölkə əhalisinin sülhə hazırlanması fikri ilə tam ziddir

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in Ermənistan XİN-in Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) "Sarıbekyan və Balayan Azərbaycana qarşı" qərarı ilə bağlı bəyanatına dair münasibətin bildirilməsi sualını cavablandırıb.

AZƏRTAC xəbər verir ki, onun sözlərinə görə, Avropa İnsan Hüquqları Məhkəməsinin bu ilin 30 yanvar tarixində qəbul edilmiş "Sarıbekyan və Balayan Azərbaycana qarşı" adlı qərarı yekun deyil və 3 ay ərzində Azərbaycan tərəfinin bu qərarı Məhkəmənin Böyük Palatasına şikayət etmək haqqı var. Hazırda bu xüsusda tərəfimizdən müvafiq araşdırmalar aparılır: "Vurğulamaq istərdim ki, AİHM-in sözügedən qərarı heç də yekdilliklə qəbul olunmayıb və azərbaycanlı hakim Lətif Hüseynov müzakirələr zamanı xüsusi rəylə çıxış edib. Xatırladırıq ki, Ermənistan vətəndaşı Manvel Sarıbekyan 2010-cu ilin 11 sentyabr tarixində Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttinin şimal-qərb istiqamətində bir neçə nəfərdən ibarət olan erməni təxribat qrupunun qərargahsı alınarkən kəşfiyyatçıya aid olan bir sıra ləvazimatlarla birlikdə yaxalanıb. Oktyabrın 5-də isə o intihar edib və faktla bağlı Bakı Hərbi Prokurorluğunda cinayət işi açılıb."

XİN mətbuat xidməti idarəsinin rəisi 1988-89-cu illərdə Qafan rayonundan azərbaycanlıların qovulmasından, Dağlıq Qarabağın və ətraf yeddi rayonun işğal edilməsindən, həmçinin Xocalı faciəsindən də söz açıb.

Leyla Abdullayeva deyib: "Ermənistan XİN-in bu bəyanatı bu ölkənin Xarici İşlər nazirinin özünün qəbul etdiyi birgə bəyanatlardakı iki ölkə əhalisinin sülhə hazırlanması fikri ilə tam ziddir və Ermənistan rəhbərliyinin əsl niyyətini ifşa edir".

*Döyüş hazırlığı*

# "Vətəni qorumaq vətəndaşlıq borcumuzdur"

*Azərbaycan Respublikası Qafqazın geosiyasi və geostrateji əhəmiyyət kəsb edən elə bir bölgəsində yerləşir ki, dövlətin təhlükəsizlik problemi regionda olan maraqların kəsişmə bucağından bilavasitə asılıdır. XXI əsrin əvvəlində milli təhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkəmizin ərazi bütövlüyünün bərpası Azərbaycan dövlətinin qarşısında duran prioritet məsələlərdəndir.*

Bu gün ölkəmizin təhlükəsizlik məsələsi söz mövzusu olduğundan, digər sahələrdə olduğu kimi, ordumuzun döyüş imkanlarının gücləndirilməsi istiqamətində də qarşıya qoyulan bütün vəzifələr həyata keçirilməkdədir. Güclü ordu dövlətin və xalqın təhlükəsizliyinin əsas təməl prinsiplərindən biri olduğu kimi, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daim artırılması torpaqlarımızın işğal altında olduğu bir vaxtda mühüm əhəmiyyət kəsb edir. Artıq Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Ordusu regionda qüdrətli hərbi gücə çevrilib.



Ön xətdə yerləşən "N" hərbi hissəsində gördüklərimiz də deməyə əsas verir ki, Azərbaycanda həyata keçirilən inkişaf strategiyası Azərbaycan Ordusunun müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Hərbi hissənin zabiti kapitan Xalid Abışov bildirdi ki, bu gün Azərbaycan Ordusu xalqın, dövlətin, azərbaycançılığın polad ifadəsidir, birliyimizin əsas simvollarından biridir. "Ordumuz Azərbaycan torpaqlarını işğaldan azad etmək üçün tələb olunan bütün imkanlara malikdir. Aprel və Günnüt zəfərləri ilə tarixi qələbə ənənəsini yaşadan Azərbaycan Ordusu həmişə üzərinə düşən missiyanı layiqincə daşımağa çalışır. Biz inanırıq ki, ordumuz Ali Baş Komandanımızın rəhbərliyi ilə güclü innovativ inkişaf, müasir tələblərə cavab verən silah və sursat, eyni zamanda, kadr potensialının sayəsində qarşısında duran bütün hədəflərə çatacaq".

Zabitin fikrini döyüş hazırlığı məşğələsi ilə məşğul olan top heyətinin komandiri çavuş Mədət Bənnayev də təsdiqlədi: "Ölkəmizdə aparılan hərbi islahatlar nəticəsində hərbi təlim, döyüş hazırlığı özünün bütün parametrləri ilə daha çox əhəmiyyət daşımaqla xüsusi diqqət mərkəzində dayanır. Azərbaycan əsgərinin formalaşdırılması, onun bir döyüşçü kimi yetişdirilməsinin ağırlıq mərkəzi məhz döyüş hazırlığının üzərinə düşür. Bu vəzifənin yerinə yetirilməsində Azərbaycan Ordusunun hazırlıqlı kadr heyəti əsas vasitələrdən biri olaraq həlledici rol oynayır. Təcrübələr onu göstərir ki, döyüş səhnəsində hazırlıqlı hərbi qulluqçu daha çox əhəmiyyət daşıyır. Əsgərlərin istər fiziki, istərsə də mənəvi cəhətdən inkişaf etməsində, hərbi qulluqçu kimi Vətənin müdafiəsinə hazırlanmasında gördüyünüz döyüş hazırlığı dərsləri xüsusi rol oynayır".

Heyət nəfəri əsgər Əfrayıl Quliyev qeyd etdi ki, döyüşün növündən asılı olmayaraq düşmənə atəşlə zərərvurmanın əsas atəş tapşırıqları raket və artilleriya qoşunlarının üzərinə düşür. Düşmənin döyüş potensialının zəiflədilməsi məqsədilə müxtəlif növ artilleriya silahlarından onun qoşunlarına və obyektlərinə uzlaşmış şəkildə və təyin olunmuş qaydada atəş edilir. Burada əsas məqsəd döyüşün gedişində üstünlüyə nail olmaq və piyadaların hücumuna şərait yaratmaqdır. Aprel döyüşləri də sübut etdi ki, artilleriyanın döyüşdə əhəmiyyəti əvəzedilməzdir.

Əsgər Rəsul Allahverdizadə isə vurğuladı ki, ordu quruculuğunun mərkəzində silah və texnika ilə yanaşı, şəxsi heyət amili və onun mənəvi-psixoloji durumu dayanır. "Bu gün bir əsgər kimi deyə bilərəm ki, Azərbaycan Ordusu Vətənini sevən, komandirlərinin sayəsində fiziki cəhətdən güclü, sağlam, mənən zəngin, döyüşkən bir şəxsi heyətə malikdir."

"Həmin şəxsi heyət isə Mübariz İbrahimov, Fərid Əhmədov, Çingiz Qurbanov, Raquf Orucov kimi qəhrəmanlarımızdan mənəvi güc alaraq torpaqlarımızın keşiyində dayanır", - deyə əsgər Fərid Əzizov əsgər yoldaşının fikrinin davamı olaraq bildirdi. - Onlar Azərbaycan əsgərinin mərdlik, cəsarət, qorxmazlıq, igidlik simvoluna çevriliblər. Bunun səbəblərindən biri Vətən sevgisidirsə, digər mühüm amil onların ortaya qoyduğu vətənpərvərlik örnəyidir. Torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin hünəri bizlərə örnəkdir. Hər birimiz onların keçdiyi döyüş yolundan çox şeyləri öyrənirik. Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur.



"Bəli, Vətən sevgisi, Vətənə məhəbbət insanın daxilindən, qanından, genindən gəlir", - deyə əsgər Əkbər Məmmədov dostunun sözünü təsdiqlədi - Vətən sevgisi, ana sevgisi qədər müqəddəsdir. İnsan qəlbinin ən böyük nəğməsi Vətən nəğməsidir. Əsl əsgər odur ki, öz Vətənini qəlbi ilə, canı və qanı ilə sevir. Onun azadlıq və istiqlaliyyəti uğrunda hər an canını da verməyə hazırdır. Müdrik bir kəlamda deyilir: "Vətəndə ölməyən iki dəfə ölür".

Əsgərlər Məhəmməd Nəsibov və Arif Zeynalov bildirdilər ki, bu gün üstündə gəzdikləri torpağı ona görə qoruyurlar ki, sabah bu torpağın altında rahat uyuya bilsinlər, eyni zamanda, gələcəkdə bu torpağın üstündə yadellilər at oynatmasınlar. Sabah onu gələcək nəsillərə müqəddəs əmanət kimi ötürə bilsinlər. "Tarixin ayrı-ayrı dönəmlərində ölkəmiz həmişə yadellilərin hücumlarına məruz qalıb. Lakin torpaqlarının müdafiəsini hər şeydən üstün bilən atalarımız Vətənlərini canları bahasına qoruyub bizə əmanət ediblər. Verilən vədə əməl etmək lazımdır, bu bizim dinimiz, inancımız, insanlığımız üzərinə yüklədiyimiz ən ali və müqəddəs vəzifə olmalıdır. Çünki min illərdir üzərində yaşadığımız bu torpaqları gələcəyə aparmaq lazımdır, onu başqa xalqların əsarəti altına atmaq insanlığa sığmaz. Heç bir halda Vətənin müdafiəsindən geri çəkilməyəcəyik, ən çətin anlarda belə bayrağımızı yüksəkliklərə qaldıracağıq, ölkəmizin adının ən yaxşıların sırasında çəkilməsi naminə ən ağır şəraitlərdə belə çalışmaqdan geri durmayacağıq. Bəli, Azərbaycanın gələcək varlığı naminə nəinki biz hərbi qulluqçular, hər bir Azərbaycan vətəndaşı vətənpərvər olmalıdır. Vətəni qorumaq vətəndaşlıq borcumuzdur".

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU




# Xocalı soyqırımının 28-ci ildönümünün keçirilməsinə dair tədbirlər planı təsdiq edilib

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevin Sərəncamı ilə "Xocalı soyqırımının iyirmi səkkizinci ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, ictimaiyyət nümayəndələri tərəfindən şəhər və rayonlarda Şəhidlər xiyabanının ziyarət edilməsi, Azərbaycanın xarici ölkələrdəki səfirliklərində, konsulluqlarında və diaspor təşkilatlarında soyqırımı ilə bağlı tədbirlərin, anım mərasimlərinin təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında qanlı qırğını əks etdirən materialların yayılması və internet şəbəkəsində mütəmadi olaraq yenilənməsi nəzərdə tutulub.

Bundan başqa, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların və qurumların iştirakı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım mərasimləri təşkil ediləcək, idarə və təşkilatlarda, təhsil və mədəniyyət müəssisələrində xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə həsr edilən sənədli və bədii filmlər nümayiş olunacaq.

Xocalılıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) dövlət qurumları rəhbərlərinin, ziyalıların şəhid ailələri ilə görüşləri təşkil ediləcək.

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq. Həmin gün saat 17.00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək. Xocalı soyqırımı günü ilə əlaqədar respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endiriləcək.

# Hərbi Akademiyada ingilis dili üzrə müəllim hazırlığı kursunun dinləyicilərinin buraxılış mərasimi keçirilib

Silahlı Qüvvələrin Hərbi Akademiyasının Xarici Dil və Tərəfdaşlıq Mərkəzində ingilis dili üzrə müəllim hazırlığı kursunun dinləyicilərinin buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə ümummilli lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.

Sonra Hərbi Akademiyanın rəis müavini general-mayor Azər Əliyev ingilis dili üzrə müəllim hazırlığı kursunun əhəmiyyətindən və mahiyyətindən danışıb. O, qeyd edib ki, kurs müddətində dinləyicilərə ingilis dili üzrə müasir tədris metodologiyası öyrədilib, onların bilik və bacarıqları təkmilləşdirilib.



Sonda kursu müvəffəqiyyətlə bitirən dinləyicilərə sertifikatlar təqdim edilib.

# Heydər Əliyev adına AAHM-də professor-müəllim heyəti ilə təlim-metodiki toplanış keçirilib

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində professor-müəllim heyəti ilə təlim-metodiki toplanış keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplanışda metodiki məşğələlər keçirilib, tədris, metodiki və tərbiyəvi işin aktual problemləri müzakirə edilib, yeni rəhbər sənədlərin tələblərinin və qoşunların təcrübəsinin tədris prosesində tətbiqi üçün aidiyyəti üzrə göstərişlər verilib və yeni tədris dövründə qarşıda duran vəzifələr tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirdə zabit kadrlarının hazırlanmasına, eləcə də döyüş hazırlığı üzrə qarşıda duran tapşırıqların vaxtında və dəqiq icrasına diqqət yetirilməsinin vacibliyi xüsusi vurğulanıb.

# Azərbaycan torpaqlarının işğal olunması qəbuledilməzdir

Azərbaycan torpaqlarının işğal olunması qəbuledilməzdir. Bu ölkənin ərazi bütövlüyü təmin olunmalıdır.

Fevralın 9-da Azərbaycanda keçirilən parlament seçkilərini müşahidə etmiş almaniyalı diplomat Volf-Ruthart Born AZƏRTAC-a açıqlamasında BMT-nin işğal faktını təsdiq edən və həmin ərazilərin geri qaytarılmasını tələb edən qətnamələrinin qeyd-şərtsiz icrasının vacibliyini bildirib. Almaniyalı diplomat münaqişənin sülh yolu ilə həlli istiqamətində danışıqların davam etdirilməsini arzuladığını söyləyib.

Volf-Ruthart Born Azərbaycan torpaqlarının işğalı ilə əlaqədar öz yurdlarından didərgin düşmüş insanların səs verdikləri məntəqələrdə də müşahidə apardığını, onlarla söhbət etmək imkanı əldə etdiyini vurğulayıb.

*Nümunəvi xidmət*

# “Vəzifə borcumuzu məsuliyyətlə yerinə yetiririk”

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində xidməti ilə komandir və şəxsi heyətin hörmətini qazanan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Zamin Babayevlə tanış olduq. Söhbət əsnasında hərbi qulluqçunun qardaşının da gizir kimi xidmət etdiyini öyrəndik. Komandirlərinin sözlərinə görə, o da vəzifəsinin öhdəsindən uğurla gəlir, xidmətini düzgün təşkil edir, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanır. Orta məktəbdə oxuyarkən hərb peşəsi ilə maraqlanan, yalnız dəqiq qərar verə bilməyən Zamin bir müddət sonra hərbi xidmətə çağırıldı. Xidməti dövründə hərb peşəsinin müqəddəsliyini daha yaxşı anladı. Hərbi qulluqçu dedi ki, komandir heyətinin davranışı, rəftarı, mənəvi-əxlaqi keyfiyyətləri, Vətənə bağlılıqları hərb peşəsinə olan sevgisini daha da artırıb. Tərxis olunduqdan sonra Zaminin vətənpərvərliyi, hərb peşəsinə olan sevgisi onu yenidən ordu sıralarına müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu kimi gətirib.

Kiçik çavuş Z.Babayev dedi ki, mən Vətənimi hədsiz məhəbbətlə sevirəm. “Mənim müqəddəs borcum Vətənə, onun çiçəklənməsinə xidmət etmək, Vətənin hər qarış torpağına sinəmi sipər edib onu qorumaqdır. Xüsusən indiki vaxtda, torpaqlarımızın 20 faizi işğal altında olduğu bir zamanda Vətən bizdən daha böyük hünər gözləyir və mən bunun üçün əlimdən gələni etməyə hazıram. Vətəni qorumaq, onu inkişaf etdirmək hamımızın şərəf və vətəndaşlıq borcudur. Düşmənlə üz-üzə mövqelərdə xidmət etdiyim üçün qürurluyam. Düzdür, çətindir, amma şərəflidir. Mərd və cəsur əsgərlərimizlə xidmət etdiyimiz üçün bu çətinlikləri hiss etmirik. Ön xətdə xidmət etmək hər bir hərbi qulluqçuya vacib xüsusiyyətlər aşılayır, hansı ki, qəhrəmanlığa səbəb olur. Şübhəsiz, ön xətdə çətin şəraitdə Vətənə övladlıq borcunu yerinə yetirən əsgərin bacarıqlı döyüşçü kimi formalaşmasının əsas məsuliyyəti biz komandir heyətinin üzərinə düşür. Komandir əsgərin güvənc yeridir. Əsgər hər addımda komandirinə inanmalıdır. Əslində, bu mövqelərdə döyüş tapşırığını yerinə yetirmək vəzifəsi koman-



dirlə əsgəri bir amal ətrafında birləşdirir - Vətəni qorumaq, müdafiə etmək və işğal altında olan torpaqlarımızı azad etmək. Bu amal əsgər-komandir münasibətlərini daha da gücləndirir. Hər zaman çalışıram ki, əsgərlər öz problemlərini mənə çəkinmədən desin. Problemi olan əsgərlə fərdi söhbət aparıram, lazım olan tədbirləri görürəm. Lazım gəldikdə yuxarı komandirlərə məruzə edirəm. Onlar da öz köməkliklərini heç zaman əsirgəmirlər. Belə münasibət şəxsi heyətdə inam və etibar hissini gücləndirir. Ali Baş Komandanımızın əmri ilə belə igid əsgərlərimizlə istənilən an erməniləri yurdlarımızdan qovub çıxarmağa qadir olan yenilməz ordumuz var. Aprel döyüşləri bunun bariz nümunəsidir. Silahlarımız daha yeni silahlarla əvəz edilib, texnikalarımız daha sürətli, daha çevikləri ilə əvəz edilib. Ordumuzun arsenalına ən yeni silahlar daxil edilib. Hərbi hissələr ən müasir texnologiyaya əsaslanan silahlarla təchiz olunub. Ali Baş Komandanımızın həyata keçirdiyi düşünülmüş siyasət nəticəsində bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır.”

Ordumuzun gücü həm də şəxsi heyətin yüksək mənəvi-psixoloji durumu ilə ölçüldüyünü deyən kiçik çavuş Z.Babayev sözlərinə davam edərək dedi: "Ordumuz bu sahədə əsl nümunə ortaya qoyur. Bizim Mübariz İbrahimov, Fərid Əhmədov, Çingiz Qurbanov, Raquf Orucov kimi qəhrəmanlarımız var. Onlar Azərbaycan əsgərinin mərdlik, cəsarət, qorxmazlıq, igidlik simvoluna çevriliblər. Bunun səbəblərindən biri Vətən sevgisidirsə, digər mühüm səbəb Ali Baş Komandanımızın nümayiş etdirdiyi vətənpərvərlik örnəyidir".

Zamin bildirdi ki, üzərimə düşən vəzifənin müqəddəsliyini və məsuliyyətini yaxşı başa düşürəm. - Bu vəzifələri həm də mənəvi borc bilirəm. Hamımız bir amal altında birləşmişik: düşmən qarşısında keçilməz səd qurub, onları ata-baba yurdumuzdan qovmağa hər an hazır olmaq. Bunun üçün də hər birimiz uğurla xidmət edir, vəzifələrimizin öhdəsindən layiqincə gəlirik. Qarşıdakı mövqeləri daim nəzarətdə saxlayır, düşmən atəşkəsi pozduqda və ya hər hansı bir təxribata əl atdıqda vaxtında qarşısını alırıq. Bütün təminatlarımız da yüksək səviyyədədir. Ölkə rəhbərliyi uğurlu xidmətimiz üçün hər cür şərait yaradıb. Belə diqqət və qayğı hər birimizə yüksək döyüş ruhu aşılayır, xidməti düzgün təşkil etməyimizə zəmin yaradır.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**




Qələbə - 75

# “Qələbəmizin sevincini yaşamaq istəyirəm”

İkinci Dünya müharibəsində milyonlarla insan həlak oldu, milyonlarla insan yaralandı, itkin düşdü. Əsir düşərgələrində işgəncələrə məruz qalanlar da oldu. Alman faşizminə qarşı dünyanın digər azadlıqsevər xalqları ilə çiyin-çiyinə Azərbaycan xalqı da vuruşdu.

Artıq Qələbənin 75 illiyinin astanasındayıq. Onilliklər birbirini əvəz etsə də, ölüm-dirim müharibəsi və iştirakçıları unudulmur, unudulmayacaq.

Böyük Vətən müharibəsində həlak olanların xatirəsini ehtiramla yad edib, müharibə veteranlarına daim xüsusi diqqət və qayğı göstərən ümummilli liderimiz Heydər Əliyevin "Tarix tarixdir və 1941-1945-ci illər müharibəsi Azərbaycan xalqının tarixində də çox görkəmli yer tutur, xalqımızın tarixinin parlaq səhifələrindəndir. Tarixdən heç bir şeyi silmək olmaz, onun hər bir mərhələsi xalqın salnaməsi, həyat yoludur" kəlamını xatırlayıram.

Müsahibim Böyük Vətən müharibəsi veteranı Damət Məcid oğlu Nəbiyev 1925-ci ildə Yevlax rayonunun Vərvərə kəndində anadan olub. 1943-cü ilin fevralında 17 yaşında müharibəyə yollanıb. O zaman Azərbaycandan iki hərbçidən biri olaraq bombardımançı təyyarəçi kursuna göndərilib.

Böyük Vətən müharibəsi veteranı deyir ki, 1943-cü il fevralın 15-də orduya yazıldım. "Ölkə təhlükədəydi. Hər birimiz Vətənin müdafiəsinə qalxmalıydıq. Bizi Sumqayıtın ehtiyat alayına gətirdilər. Bir ay tamam olmamış iki zabit gəlib aramızdan Gürcüstandakı Aviasiya məktəbində təhsil almaq üçün iki nəfəri seçdi. Onlardan biri də mən idim".

Müsahibim 75 il öncə Ukraynada, Polşa ətrafında gedən ağır döyüşləri xatırlayır. Qürurla Berlinə qədər döyüş yolu keçdiyini deyir: - Varşava üzərində yeddinci uçuşumda dostum yaralandı, bizi atəşə tutdular. Biz mühərrik zədələnəndən sonra, Visla şəhərinin ətrafında məcburi enməli olduq. Yaxşı ki, ərazi salamat idi və biz xilas olduq.

Damət Nəbiyev Varşavanın azad olunmasında da iştirak edib. Sonuncu döyüş uçuşunu 1945-ci il mayın 2-də Berlin səmasında edib. "İlk uçuşum Polşanın Varşava şəhərinə olub. Varşavanı almaq, sözün



əsl mənasında, çox çətin idi. Varşavanın müdafiəsi üçün almanlar üç cərgə zenit-artilleriya qurğuları yerləşdirmişdilər. Bizim üçün ən qorxulu döyüş Varşava şəhərinin ətrafında oldu. Bunun ardınca Poznan şəhəri Sovet orduları tərəfindən mühasirəyə alındı. Həmin vaxt bizim aerodromumuz Poznan şəhərində idi. Hətta Hitler həmin vaxt mühasirədə qalan qoşunlarına kömək üçün təyyarələrlə desant, hərbi silah-sursat, qida və geyim ləvazimatları göndərirdi. Bütün bunlara baxmayaraq Poznan şəhəri də Sovet ordusuna təslim edildi".

Damət Nəbiyevin nəzərləri məchulluğa dikildi, sanki o anları yenidən yaşarcasına həyəcanlandı.

- Sonuncu gərgin döyüş uçuşumuz Berlin şəhərinə oldu. 1945-ci ilin aprelin axırlarında ordumuz artıq Berlin şəhərinin ətrafındaydı. Meşəlikdə alman ordusunun çoxlu zirehli texnikaları yerləşdirilmişdi. Sovet ordusu almanların bu bazalarını zərərsizləşdirmək üçün ardıcıl hərbi əməliyyatlar keçirirdi. Bizə əmr olunmuşdu ki, oranı tamamilə bombardman edərək, piyada qoşunlarının Berlinə daxil olması üçün yolun açılmasını təmin edək. Ordumuz Berlinə daxil oldu...

Döyüşlərdə sinəsindən və başından yaralanmış müharibə veteranı İkinci Dünya müharibəsinin bəşəriyyətə vurduğu yaralardan danışdı: - Vətən anlayışı hər bir insan üçün əziz və müqəddəs idi. Vətən dardaydı. Hər bir kəs Vətən uğrunda canından keçməyə hazır idi.

Veteranlara Prezident təqaüdünün verilməsindən, hər il onlara birdəfəlik maddi yardımın göstərilməsindən, mənzil və avtomobillərlə təmin edilməsindən, sanatoriya və xəstəxanalarda pulsuz müalicə olunmalarından və övladlarına verilən imtiyazdan söz açan müharibə veteranı onlara olan xüsusi diqqət və qayğıdan da danışdı. Bildirdi ki, Böyük Vətən müharibəsi iştirakçılarına qayğı 1994-cü il 28 iyun tarixli "Veteranlar haqqında" qanunda öz hüquqi əsasını tapıb. Veteranlara diqqət və qayğı bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Müharibə veteranı qürurla müharibədə qazandıqları medallarına gözucu nəzər salaraq bildirdi ki, üç il Ağdamda, 1973-cü ilədək Gəncədə xidmət edib. Uzun müddət gənclərin hərbi hazırlığı ilə məşğul olub, mühazirələr oxuyub. Bu gün də orta məktəblərdə keçirilən tədbirlərə dəvət edilir, cəbhə bölgələrində olur, əsgər və zabitlərlə görüşür. Keçdiyi döyüş yolundan, torpaqlarımızın işğaldan azad ediləcəyindən söhbətlər edir. Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımızın düşməndən azad edilib Qələbə xəbərinin veriləcəyi günü səbirsizliklə gözləyir, qələbəmizin sevincini yaşamaq istəyir...

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Hərbi hissənin yaradılmasının ildönümü münasibətilə tədbir keçirilib

*Fevralın 11-də "N" hərbi hissəsinin yaradılmasının ildönümü münasibətilə tədbir keçirilib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.*



Sonra Müdafiə Nazirliyi rəhbərliyinin təbriki şəxsi heyətə çatdırılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə polkovnik Səyavuş Mustafayev, polkovnik Ədalət Hacıyev və digər çıxış edənlər hərbi hissənin qarşısında duran vəzifələrdən, şəxsi heyətin beynəlxalq səviyyədə həyata keçirdiyi missiyalardan və dövlətimizi layiqincə təmsil etmələrindən söz açıblar.

Ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində açdığı yolun Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi xüsusi vurğulanıb.

Hərbi hissənin xidmətdə fərqlənən, yüksək nizam-intizamı ilə seçilən hərbçiləri fəxri fərman və qiymətli hədiyyələrlə təltif olunublar.

Tədbir mədəniyyət və incəsənət nümayəndələrinin təqdimatında konsert proqramı ilə davam etdirilib.

# Hikmət Hacıyev: Harlem Dezirin hadisələrə tələm-tələsik reaksiyası onun Azərbaycana olan aşkar qərəzini göstərir

*Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ATƏT-in media azadlığı üzrə nümayəndəsi Harlem Dezirin Azərbaycanda guya jurnalistlərə qarşı zorakılığın baş verməsi ilə bağlı bəyanatına münasibət bildirib.*

Hikmət Hacıyev AZƏRTAC-a müsahibəsində Harlem Dezirin davamlı şəkildə qatı anti-Azərbaycan mövqeyi nümayiş etdirən bir şəxs olduğunu, Azərbaycanda baş verən hadisələri qəsdən şişirtdiyini və siyasiləşdirdiyini deyib. Prezidentin köməkçisi vurğulayıb ki, H.Dezirin məsələləri öyrənmədən, tələm-tələsik reaksiyası onun Azərbaycana olan aşkar qərəzini göstərir.

"Lakin "insan haqları uğrunda cəfakeş" H.Dezir nədənsə Ermənistanda insan hüquqlarının pozulması, təqib və həbslərə göz yumur. Ermənistanın baş naziri öz siyasi rəqiblərini bir-bir həbsə atır, onları "asfalta uzatmaqla" hədələyir. Ermənistanda jurnalistlər həbs və təqib olunur. Keçən il müxalif siyasətçi və jurnalist Mher Yeqizaryan həbsxanada etdiyi aclığın ardından vəfat etdi. Lap bu yaxınlarda "VETO" hərəkatından olan müxalif bloqqer Narek Malyan qanunsuz silah saxlanması ittihamı ilə saxlanılıb. Satik Seyranyan, Armen Tavadyan və digər şəxslərlə bağlı vəziyyəti qeyd etmək olar. Lakin biz H.Dezirin bu məsələlərə dair heç bir reaksiyasının şahidi olmuruq. Görünür, H.Dezir insan hüquqlarına münasibətini siyasi coğrafiyaya görə müəyyən edir. Prosedurlara uyğun olaraq bu ilin iyun ayında ATƏT-də onun mandatının uzadılıb-uzadılmaması məsələsinə baxılacaq. H.Dezirin vəzifəsindən sui-istifadə etməsi, məsələləri lüzumsuz yerə hədsiz dərəcədə şişirtməsi və siyasiləşdirməsi nəzərə alınaraq, bu gedişlə onun mandatının uzadılması ilə bağlı Azərbaycan tərəfinin fərqli fikri olacaq", - deyə Hikmət Hacıyev qeyd edib.

# ATƏT nümayəndəsi Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının üzvləri ilə görüşüb

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik ilə görüşüb.

İcmadan AZƏRTAC-a verilən məlumata görə, görüşdə Tural Gəncəliyev icmalararası təmaslara hazır olduqlarını, məcburi köçkünlərin öz torpaqlarına geri dönmək istəklərini və bu müstəvidə irəli sürülən təşəbbüsləri dəstəkləmək niyyətində olduqlarını bəyan edib.

Xatırladaq ki, son zamanlar Dağlıq Qarabağın azərbaycanlı icması ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin Azərbaycandakı səfirləri, həmçinin digər rəsmi və ictimai şəxslərlə çoxsaylı görüşlər keçirib. Görüşlərdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının erməni icması ilə ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh şəraitində birgə yaşamağa hazır olduğu diqqətə çatdırılıb.

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** IX əsrdə Azərbaycanda xalq azadlıq hərəkatı. Babək Xürrəminin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və digər müvafiq ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar**

**1. IX əsrdə Azərbaycanda xalq azadlıq hərəkatı.**

**2. Babək Xürrəminin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə.**

**3. Xürrəmilər hərəkatının əhəmiyyəti.**

*IX əsrdə Azərbaycanda xalq azadlıq hərəkatı*

VII əsrin əvvəllərində Ərəbistan yarımadasında güclü bir feodal dövləti meydana gəldi. Asiyada, Afrikada və Avropada İslam dinini yaymaq siyasəti yeridən ərəblər İranın Rey və Qəzvin şəhərlərini işğal etdikdən sonra 639-cu ildə sərkərdə Hüzeyfənin başçılığı ilə Azərbaycana daxil oldular. Ərəb ordularının fasiləsiz hücumlarına baxmayaraq, əhali onlara asanlıqla boyun əymədi, düşmənə ciddi müqavimət göstərərək, vergi verməkdən və islam dinini qəbul etməkdən imtina etdi. Yalnız 90 illik kəskin mübarizədən sonra xilafət orduları Azərbaycanın istilasını başa çatdıra bildilər. Ərəblər işğal etdikləri ölkələri əvvəllər öz qaydaları əsasında idarə edirdilər. Bu qaydalar isə mümkün qədər çox vergi toplamaqdan və başqa dinə mənsub olanlar arasında islam dinini yaymaqdan ibarət idi.

Xilafətin soyğunçu vergi siyasəti və məmurların özbaşınalığı, dəhşətli istismar və hüquqsuzluq, yerli feodalların mülklərinin və imtiyazlarının məhdudlaşdırılması, güclü ərəbləşdirmə siyasəti və başqa səbəblər əhalinin vəziyyətini ağırlaşdırmaqla yanaşı, ümumxalq qəzəbini coşdururdu.

VIII əsrin ortalarında Əməvilər sülaləsinin siyasətinə qarşı həm xilafət sarayında, həm də onlara tabe olan ölkələrdə kəskin mübarizə gedirdi. Xilafətə qarşı çıxışlar Azərbaycanda 748-752-ci illərdə geniş vüsət aldı. Üsyanda əhalinin bütün təbəqələri iştirak edirdilər və onlara yerli feodallar başçılıq edirdilər. Bu, səbəbsiz deyildi. Ərəblər Azərbaycanda möhkəmləndikcə yerli feodalları dövlət aparatından uzaqlaşdırır, onların torpaqlarını, kəndlilər üzərindəki hüquqlarını və digər imtiyazlarını məhdudlaşdırırdılar. Ona görə də feodallar xilafətdən daha çox narazı idilər.

Ərəblərə qarşı 748-ci ildə Beyləqanda başlamış ilk üsyan tezliklə digər vilayətləri, xüsusilə Bərdəni və Ərdəbili əhatə etdi. Xalq hərəkatı Azərbaycanın digər əyalətlərini və bütün Ön Qafqazı bürüdü. 752-ci ildə üsyan amansızlıqla yatırıldı.

Azərbaycanda azadlıq mübarizəsinin parlaq səhifələrindən biri ərəb xilafətinə qarşı xürrəmilər (qədim pəhləvi dilində od, günəş) hərəkatıdır. Xürrəmilərin şüarı torpağı və digər istehsal vasitələrini xalqın ixtiyarına verməkdən, kəndliləri və sənətkarları feodalların və digər hakim təbəqələrin asılılığından azad etməkdən ibarət idi. Xürrəmilər sosial bərabərlik uğrunda mübarizə aparır, bütün təbəqələrdən olan gənclər üçün istinasız kəbin hüququ azadlığı, maddi nemətləri insanlar arasında bərabər bölüşdürmək kimi tələblər irəli sürürdülər. Xürrəmilər Azərbaycanın istiqlaliyyətini bərpa etmək, Vətəni yadellilərdən qurtarmağa çalışırdılar.

Orta əsrlərdə bütün çıxışlar milli zəmində başlasa da, sonradan siyasi mahiyyət kəsb edərək azadlıq müharibəsi səviyyəsinə yüksəldi. Bu, erkən orta əsrlərdə Şərqdə islamın bəzi ayinlərinə, feodal zülmünə və ən başlıcası ərəb əsarətinə qarşı çevrilmiş xalq hərəkatı idi. Xürrəmilər tarixdə ilk dəfə işğalçılara qarşı mübarizədə azadlıq rəmzi kimi qırmızı bayraq qaldırmış və qırmızı paltar geyinmişlər.

*Babək Xürrəminin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə*

Tarixi mənbələrin məlumatına görə, xürrəmilərin ərəblərə qarşı azadlıq mübarizəsi 61 il davam etmişdir. Onun üçdə iki hissəsini Babəkə qədərki dövr təşkil edir. Bu mübarizənin xeyli hissəsinə Bəzz qalasının sahibi Cavidan rəhbərlik etmişdir. 816-cı ildə yerli feodal Əbu İmranla döyüşdə Cavidan ağır yaralanaraq aldığı yaradan öldü. Cavidanın ölümündən sonra xürrəmilərin hərəkatına onun köməkçisi Babək rəhbərlik edir. Əsrlərdən bəri adı qəhrəmanlıq rəmzinə çevrilmiş Babək öz zəmanəsinin cəsur sərkərdəsi və görkəmli siyasi xadimi idi. Babək 798-ci ildə (bəzi mənbələrə görə 795-ci ildə) Ərdəbil yaxınlığında Bilalabad kəndində anadan olmuşdur. Babək gənc yaşlarında bir neçə il çobanlıq etmiş, iki il Təbrizdə sənətkar yanında şagird olmuş, sonra Cavidanla rastlaşıb xürrəmilərin paytaxtı Bəzzə getmişdi.

Xürrəmilər Babəkə qədər xilafətə qarşı iki dəfə - 778 və 808-ci illərdə üsyan etmişlər. Daha güclü olan ikinci üsyanda yüz minlərlə insan iştirak edirdi. Ərəb sərkərdəsi Abdulla ibn Malikin başçılığı altında üsyan amansızlıqla yatırıldı, üsyançıların çoxu öldürüldü, on minlərlə insan əsir alındı, əsir alınmış kişiləri xəlifə Harun ər-Rəşidin göstərişi ilə öldürdülər, qadın və uşaqları isə qul kimi satdılar.

Lakin xilafətin amansız cəza tədbirləri xürrəmilərin azadlıq uğrunda mübarizə əzmini məhv edə bilmədi. Onların sırası seyrəlsə də, düşmənə qarşı döyüş təcrübələri zənginləşdi.

Babək xürrəmilər icmasında rəhbərliyi qəbul edən zaman onun tərəfdarlarının miqdarı kifayət qədər çox deyildi. O, xürrəmilərə silah paylayıb göstəriş verdikdən sonra əlverişli məqam çatana kimi gözləmələrini tapşırdı. Həmin müddətdə Babək öz adamlarını Azərbaycanın hər tərəfinə göndərərək ölkəni xilas etmək üçün onları ərəblərə qarşı azadlıq mübarizəsinə çağırdı. Ölkənin hər tərəfindən minlərlə insan Babəkin bayrağı altında toplandı. Bəzi mənbələrə görə, Babəkin ordusunda təkcə atlılar 20 min nəfər idi. Babək orduda ciddi intizam yaratmışdı.

Azadlıq ordusunun əsas hərəkətverici qüvvəsini kəndlilər təşkil etsə də, orada şəhər yoxsulları, sənətkarlar, orta və xırda feodallar, əhalinin müxtəlif təbəqələrinə mənsub adamlar da az deyildi.

Xürrəmilər xilafət orduları üzərində parlaq qələbələr çalaraq Azərbaycanı onlardan təmizlədikcə azadlıq mübarizəsinə qoşulanların sayı artırdı. Ərəb tarixçisi Bağdadın verdiyi məlumata görə, Azərbaycanın cənubunda Babək tərəfdarlarının sayı 300 min nəfərə çatırdı.

İşğalçılara qarşı kəskin narazılıq və müqavimət bir çox əraziləri bürüsə də, bütün mənbələr təsdiq edir ki, azadlıq mübarizəsinin əsas mənbəyi Babəkin və xürrəmilərin Vətəni Azərbaycan idi.

IX əsrin 30-cu illərinin əvvəlləri azadlıq mübarizəsinin ən uğurlu dövrü idi. Üsyançılar xilafəti lərzəyə salmışdılar. Ərəb tarixçisi Dinəverinin məlumatına görə, bu zaman "Babəkin işi böyük vüsət aldı və ərəblər ondan qorxmağa başladılar. Onunla vuruşurdular, lakin qalib gələ bilmirdilər. Babək qoşunları dağıdır və sərkərdələri öldürürdü".

833-cü ilin sonunda Həmədan şəhəri yaxınlığında şiddətli döyüşdə xürrəmilər ilk dəfə ağır məğlubiyyətə uğradılar. Onların itkisi 60 mindən 100 minə qədər idi. Xəlifə Bizansla müharibəni dayandırdı. Dövlətin fəaliyyətini, bütün ordunu, maddi və hərbi sursatı xürrəmilərə qarşı yönəltdi. 835-ci ildə xəlifə Mötəşim məşhur sərkərdə Afşin Heydər ibn Kavusu xürrəmilərə qarşı döyüşən ərəb ordusunun baş komandanı təyin etdi. Ərəblərin xürrəmilərə qarşı mübarizə taktikasını dəyişən Afşin Babəkin tərəfdarları və müttəfiqləri olan yerli feodallar Səhl ibn Sumbatı, ibn Bəisi, Əbu Musanı və onlarla başqalarını öz tərəfinə çəkdi. Xəyanət nəticəsində Babəkin cəsur sərkərdəsi İsma əsir alındı, 836-cı ildə isə daha bir sərkərdə - Tərxan öz evində öldürüldü.

Azadlıq müharibəsinin ilk dövründə, üsyan sürətlə genişləndiyi şəraitdə mübarizəyə qoşulan, onları silahla, ərzaqla, pulla təmin edən yerli feodallar hərəkatın müəyyən məqamında mülk və imtiyazlarını itirəcəklərini güman edərək mübarizədən uzaqlaşdılar. Bununla belə, təcrübəli sərkərdə olan Babək ağıllı taktika ilə düşmənin planlarını pozur və onları çıxılmaz vəziyyətə salırdı.

Ərəb sərkərdəsi Afşin Babəkə sülh danışığına başlamağı təklif edərək onu inandırmağa çalışırdı ki, bağışlanması haqqında xəlifədən fərman alacaq. Lakin Babək əqidəsindən dönmədi. O, Vətənin istiqlaliyyətini şəxsi xoşbəxtliyinə qurban vermədi. Xəlifənin təklif etdiyi imtiyazları və hədiyyələri xalqına xəyanət kimi qiymətləndirdi.

Belə olduqda həlledici döyüş labüd idi. Daha yaxşı silahlanmış və təchiz olunmuş ərəblər əlverişli vaxtda Babəkin ordusu üzərinə hücum etdilər. 837-ci il avqustun 26-da son döyüş başlandı. Bəzz qalasını hər tərəfdən mühasirəyə alan ərəblər qala divarlarını dağıtmaq üçün daş atan mancanaqlardan və neftlə isladılmış oxlardan da bacarıqla istifadə edirdilər. Qalanın müdafiəsinə Babəkin etibarlı və cəsur sərkərdəsi Adin başçılıq edirdi. Bütün günü davam edən qanlı döyüşdə düşmən əsgərlərindən dəfələrlə az olmalarına baxmayaraq, xürrəmilər misilsiz rəşadət göstərirdilər. Onların qeyri-adi mətanəti və igidliyi ərəbləri heyrətə gətirirdi. Vətənin cəngavər oğulları müqəddəs torpağımız uğrunda şəhid olmağı şərəf sayırdılar. Bəzz döyüşü orta əsrlər müharibələri tarixində ən çox insan qırğınına səbəb olan döyüşlərdəndir. Bu döyüşdə yaralananlardan və itkin düşənlərdən əlavə ərəblərdən 100 min nəfər, üsyançılardan 80 min nəfər həlak olmuşdu. Ərəblər Afşinin göstərişi ilə Bəzz qalasını 3 gün yandırdılar, 8 minə yaxın əsir götürdülər. Onların içərisində Ba-bəkin ailə üzvləri və yaxın qohumları da var idi.

Bəzzin süqutundan sonra Babək qardaşı Abdulla ilə birlikdə köhnə müttəfiqi Səhl ibn Sumbat tərəfindən xəyanət yolu ilə tutularaq ərəblərə təhvil verildi. 838-ci il martın 14-də xəlifə Mötəsimin hökmü ilə Babək Samirə şəhərində edam edildi.

Edam zamanı Babək heyrətamiz mənəvi dözüm göstərdi. Cəllad əvvəlcə onun sağ əlini biləkdən kəsdi. Qan axanda Babək sol əli ilə üzünü qana boyadı. Xəlifə ondan nə üçün belə etdiyini soruşanda Babək bildirdi: "Adamlar elə başa düşərlər ki, mən elə əvvəldən ölümdən qorxmuşam. Mən üzümü qana boyadım ki, bənizim solğun görünməsin".

*Xürrəmilər hərəkatının əhəmiyyəti*

Müvəffəqiyyətsizliklə nəticələnməsinə baxmayaraq, Babək hərəkatı bütün xilafəti lərzəyə salmış, Şərqdə ərəb hökmranlığına ağır zərbə vurmuşdu. Babək hərəkatı dövründə xilafətin təqribən 500 min əsgəri məhv edilmişdi. Xilafətin əsasını sarsıdan və onun dağılmasını xeyli sürətləndirən Babək hərəkatı qonşu xalqların azadlıq mübarizəsini xeyli yüngülləşdirdi və onların ərəb əsarətindən azad olmasını asanlaşdırdı. Xürrəmilərin məğlubiyyəti və Babəkin edamı Azərbaycanda, eləcə də xilafətin digər vilayətlərində ərəblərə qarşı mübarizəni dayandırmadı. 838-39-cu illərdə Təbəristanda Məzyarın başçılığı ilə üsyan başlandı. Üsyançılar xürrəmilərin şüarları ilə çıxış edirdilər. Babək hərəkatının məğlubiyyətindən sonra xilafət əleyhinə yeni üsyanlar baş verdi.

Orta əsrlərdə baş verən digər kəndli müharibələrindən fərqli olaraq bu müharibə hər şeydən öncə istiqlaliyyət uğrunda azadlıq müharibəsi idi. Mübarizədə xalqın imtiyazlı təbəqəsinin dönüklüyü, ərəblərə nisbətən daha cəsur və döyüşkən türk sərkərdələrinin eyni və digər mənşəli üsyançılara qarşı səfərbərliyə alınması, ən başlıcası ermənilərin xəyanəti və ərəblərə köməklik etməsi azadlıq müharibəsinin məğlubiyyətlə nəticələnməsinə səbəb oldu. Ağır məğlubiyyətə baxmayaraq, xürrəmilər hərəkatı digər asılı xalqların azadlıq mübarizəsinə təkan verməklə yanaşı, Azərbaycanda xalqın şüurunda və əməlində əsrlərlə yaşadı. Üsyançılar və onların rəhbəri Babəkə nifrət hissi bəsləmələrinə baxmayaraq, hərəkatın təsirini və əzəmətini ərəb tarixçiləri də etiraf etmişlər. İbn Təğriberdi adlı tarixçi yazırdı ki, "Babək öz zəmanəsinin qəhrəmanı və xilafəti dəhşətə gətirən bir igiddir".

Bu mövzunu öyrənərkən bir daha qeyd olunmalıdır ki, Azərbaycan torpaqlarının bir hissəsi hələ də ermənilərin işğalı altındadır. Azərbaycanın müstəqilliyinin bərpa olunmasının ilk illərində ölkədə olan mürəkkəb daxili ictimai-siyasi vəziyyətdən məharətlə istifadə edən ermənilər bəzi xarici dövlətlərin dəstəyi ilə torpaqlarımızı, Qarabağın dağlıq hissəsini və daha 7 rayonu işğal etməyə müvəffəq oldular. Ona görə də bu gün Azərbaycan Ordusunun qarşısında duran ən başlıca vəzifə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün həmişə döyüşə hazır olmaqdır. Azərbaycan Ordusunun hərbi qulluqçusu dərslərdə və təlimlərdə hərb işini vicdanla öyrənməklə yanaşı, öz xalqının qəhrəmanlıq tarixini də bilməli, onlarla fəxr etməli və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə babaların şanlı döyüş ənənələrinə yüksək sədaqət nümunəsi göstərməyə hazır olmalıdır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# MOİK təmsilçimiz ikiqat Avropa çempionu olub

*İtaliyanın paytaxtı Romada keçirilən Avropa çempionatının ikinci yarış günündə - fevralın 11-də 60, 67, 72, 82 və 97 kiloqram çəki dərəcələrində çıxış edən yunan-Roma güləşçiləri mübarizəyə qoşulub.*



Müdafiə Nazirliyi Mərkəzi Ordu İdman Klubunun (MOİK) təmsilçisi baş leytenant Rafiq Hüseynov çətinlik çəkmədən əvvəlcə niderlandlı güləşçiyə qalib gəlib. İsveç təmsilçisi ilə görüşdən də üstünlüklə ayrılan güləşçimiz yarımfinala yüksəlib.

Növbəti görüşdə italiyalı rəqibinə qalib gələn MOİK təmsilçisi R.Hüseynov doqquz illik fasilədən sonra Avropa çempionatının finalına vəsiqə qazanıb.

Fevralın 12-də 60, 67, 72, 82 və 97 kiloqram çəki dərəcələrində təsəllüverici görüşlər, axşam seansında isə medal qarşılaşmaları keçirilib.

Finalda 82 kiloqram çəki dərəcəsində mübarizə aparan güləşçimiz R.Hüseynov həlledici qarşılaşmada Bolqarıstan idmançısı Daniel Tixomirov-Aleksandrov ilə üz-üzə gələrək onu 2:1 hesabı ilə məğlub edib.

Beləliklə, yunan-Roma güləşçimiz R.Hüseynov qızıl medal qazanaraq ikiqat Avropa çempionu olub.

* * *

İtaliyanın paytaxtı Romada keçirilən Avropa çempionatında yunan-Roma güləşçilərimiz tarixdə ilk dəfə 6 medal qazanaraq, komanda hesabında 2-ci yerə layiq görülüblər.

Millimizin tərkibində çıxış edən Müdafiə Nazirliyi Mərkəzi Ordu İdman Klubunun (MOİK) təmsilçiləri də yarışlarda inamla çıxış edərək biri qızıl, ikisi bürünc olmaqla 3 medal qazanıblar.

Avropa çempionatında 3-cü yer uğrunda mübarizə aparan yunan-Roma güləşçilərmiz Murad Bazarov (60 kq) və Ülvi Qənizadə (72 kq) son görüşlərində qələbə qazanaraq hər ikisi yarışların bürünc medalına sahib olublar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Fiziki hazırlıq

# “Çalışırıq ki, şəxsi heyətimiz fiziki cəhətdən çevik, dözümlü və qüvvətli olsun”



Hərbi hissənin ərazisinə daxil olanda ilk olaraq diqqətimizi idman şəhərciyi cəlb etdi. Burada şəxsi heyətin səhər və axşam fiziki hazırlıq məşğələsi ilə məşğul olmaları üçün hər cür şərait yaradılıb. Əsgərlərimiz komandirlərinin rəhbərliyi altında müxtəlif idman qurğularında məşq edərək, fiziki güclərini artırırlar. Gəlişimiz səhər fiziki hazırlığı məşqinə təsadüf etdi. Hərbi qulluqçular turnikdə dartınır, paralel qollarda və digər qurğularda çalışmaları yerinə yetirirdilər. Şəxsi heyəti məşqdən ayırmaq istəmədiyimiz üçün bir az gözləməli olduq. Kiçik çavuş Rövşən Əliyev əsgərlərimizə məşğələnin bitməsi haqqında məlumat verdi. Fürsətdən istifadə edib, əsgərlərə yaxınlaşırıq.

- Tabeliyimizdə xidmət edən əsgərlər həm fiziki hazırlıq məşğələlərində, həm də təlimlərdə fəal iştirak edirlər, - deyə kiçik çavuş Rövşən Əliyev söhbətə başladı. - Onlar sadəcə günün nizam qaydası ilə təyin olunmuş vaxtlarda deyil, asudə vaxtlarında da idman şəhərciyinə gəlib məşq edirlər. Biz də çalışırıq ki, şəxsi heyətimiz fiziki cəhətdən çevik, dözümlü və qüvvətli olsun. Əsgərlərimiz də verilən əmr və tapşırıqların öhdəsindən bacarıqla gəlir, xidməti vəzifələrini layiqincə yerinə yetirirlər.

Vətənə olan sevgisindən, hərbi xidmətə yaranan marağından danışan kiçik çavuş Rövşən Əliyev bildirdi ki, dünyanın ən gözəl və səfalı yerlərini gəzib geri qayıdanda insan xüsusi rahatlıq tapır. "Vətən sadəcə müəyyən sərhədi olan coğrafi məkan deyil. Vətən doğulub-böyüdüyün, uğrunda canını verməyə hazır olduğun, şəhidlərimizin bizə miras qoyduğu müqəddəs torpaqdır. Biz də bu mirası göz bəbəyimiz kimi qoruyub saxlamalıyıq. Necə ki, dayımın simasında qəhrəman oğullarımız bunu ediblər. Dayım Qarabağ uğrunda Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid olub. Onun yolunu şərəflə davam etdikməkdən qürurlanıram. Hər səhər yuxudan oyananda ümid edirəm ki, şəhid qardaş və bacılarımızın qisasını alacağımız gündür. İnanıram ki, o gün uzaqda deyil."

- Uşaq vaxtlarımdan idman həyatımın bir parçasına çevrilib, - əsgər Nicat Ağarəhimov dedi. - İdmanın cüdo növü ilə məşğul oluram. Bu sahədə müəyyən nailiyyətlər əldə etmişəm. Ancaq qazandığım medallarla kifayətlənmirəm. Respublika daxilində birinciliklər artıq məni qane etmir. Arzumdur ki, ölkəmizi beynəlxalq arenada təmsil edim. Komandirlərimiz məqsədimi bilir, bunun üçün fiziki hazırlığımı artırmaq üçün əllərindən gələni əsirgəmirlər. Çalışacağam ki, üçrəngli bayrağımızı qatıldığım hər yarışda dalğalandırım, onların ümidlərini doğruldum. Burada əsgərlər üçün hər cür şərait yaradılıb. Günün nizam qaydasına uyğun olaraq nəzəri və praktiki biliklərimizi məşğələlərdə artırır, asudə vaxtlarımızda müxtəlif növ yarışlar keçirirək.

Atasının Qarabağ əlili olduğunu deyən əsgər Yasin Kərimov bildirdi ki, müasir Azərbaycan Ordusunun əsgəri olmağı ilə fəxr edir. "Müharibənin acı nəticələri ilə hələ uşaq yaşlarımdan qarşılaşdım. Atam Qarabağ müharibəsi iştirakçısıdır. O, həmişə ermənilərin törətdikləri insanlığa sığmayan vəhşiliklərdən danışanda qəhərlənirdi. Tez böyüyüb, əsgər olmaq istəyirdim. Çağırış vərəqi gələndə atamın sevincli baxışları heç vaxt yaddaşımdan silinməyəcək. Hərbi formanı əyninə geyindiyim an özümə söz verdim ki, Vətənimizin son qarış torpağı azad olunmayınca bu müqəddəs formanı çıxarmayacam. Bunun üçün mütəmadi olaraq bilik və bacarıqlarımızı artırırıq. Çalışıram ki, komandirlərimizin öyrətdiklərini dərindən mənimsəyim. Fiziki hazırlıq məşqlərində müxtəlif çalışmalar yerinə yetiririk. Komandirlərimiz həm fiziki cəhətdən güclü olmağımıza, həm də sağlamlığımızın möhkəmlənməsinə xüsusi diqqət yetirirlər. Mahir döyüşçü olmaq üçün hərb sənətinin incəliklərini bilməli, yerləşdiyin və azad edəcəyimiz ərazinin relyefinə bələd olmalısan. Komandirlərimiz yalnız nəzəri deyil, həm də praktiki biliklərimizi artırırlar. Keçirilən təlimlər Azərbaycan əsgərinin gücünün və qələbəyə olan inamının nə qədər böyük olduğunu göstərir. Qalib ordunun əsgəri olaraq gələcək döyüşlərdə düşməni törətdiklərinə görə peşman edəcəyik."



Əsgərlər Kənan Əzimzadə, Fərid Nəcəfli, Elşən Əhmədov, Elmir Rzazadə və digərləri dedilər ki, məşğələlərin hər dəqiqəsi səmərəli keçir. Dərslərdə fəal iştirak edən Vətənin müdafiəçiləri fiziki hazırlıqları yüksək olanda özləri-ni təlimlərdə daha inamlı hiss etdiklərini bildirdilər.

Şəxsi heyətin cəld və çevik hərəkətləri, komandirlərinə olan rəğbəti, onların hər zaman döyüşə hazır olduqlarından xəbər verirdi. Düşünürəm ki, hazırda hərbi hissələrdə yaradılan bu cür sosial-məişət şəraitinin əsgərlərimizin peşəkarlığında müstəsna rolu vardır. İnanırıq ki, müasir standartlara cavab verən idman şəhərciyində təcrübəsini artıran Azərbaycan əsgəri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında döyüş meydanında qələbə qazanacaq.

**Baş leytenant Ruslan HƏSƏNZADƏ, "Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Rəcəb Tayyib Ərdoğan: İdlibdə əsgərlərimizə təhlükə yaradan nöqtələri vuracağıq



İdlibdə türk əsgərlərinə təhlükə yaradan nöqtələri vuracağıq.

Bu fikri Prezident Rəcəb Tayyib Ərdoğan sədri olduğu hakim Ədalət və İnkişaf Partiyasının Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısında söyləyib. Dövlət başçısı qeyd edib ki, Türkiyə öz əsgərlərinə təhlükə yaradan rejimin qüvvələrini ona məxsus olan mövcud patrul məntəqələrindən uzaqlaşdırmaqda qərarlıdır.

## ABŞ 990 milyon dollar dəyərində uzaq məsafəli gəmi əleyhinə raketlərin Avstraliyaya satış sövdələşməsini təsdiq edib



ABŞ-ın Dövlət Departamenti 200 ədəd AGM-158C uzaq məsafəli gəmi əleyhinə raket və köməkçi avadanlıqlarının Avstraliya hökumətinə satışını təsdiq edib. Müqavilənin dəyəri 990 milyon dollardır.

Agentliyin verdiyi informasiyaya əsasən, Avstraliyanın satış üzrə tələbatı köməkçi və sınaq avadanlıqlarını, texniki publikasiya və sənədləşməni, personalın təlimi, təlim avadanlıqları, ABŞ dövlətinin nümayəndələri və podratçılar tərəfindən texniki köməyi, həmçinin texniki və logistik dəstəyi əhatə edir.

Müdafiə və Təhlükəsizlik Əməkdaşlıq Agentliyinin bəyanatında deyilir: "Təklif edilən satış ABŞ-ın xarici siyasəti və milli təhlükəsizlik məqsədlərini dəstəkləyəcək. Avstraliya bizim Sakit okeanın qərb hissəsində ən vacib müttəfiqlərimizdəndir. Siyasi və iqtisadi cəhətdən güclü olan bu ölkənin strateji mövqeyi regionda iqtisadi sabitliyin yaranması və sülhün təmin edilməsinə mühüm töhfə verir.

AGM-158C LRASM uzaq məsafəli gəmi əleyhinə raketi ABŞ-ın Hərbi Dəniz Qüvvələrinin 1977-ci ildən istifadə etdiyi "Qarpun" adlı gəmiəleyhinə raketindən fərqli olaraq, daha mürəkkəb imkanları olan qanadlı raketdir.

## Misirdə antiterror əməliyyatında 17 terrorçu öldürülüb



Misirin Daxili İşlər Nazirliyi Şimali Sinay vilayətinin Ariş rayonunda terrorçulara qarşı həyata keçirilən əməliyyat barədə məlumat yayıb. Məlumatda antiterror əməliyyatında İŞİD-in düşərgələrində təlim keçmiş 17 terrorçunun öldürüldüyü bildirilir.

Misirin DİN bildirib ki, Milli Təhlükəsizlik Agentliyinə Obeydat adlanan qəsəbədə toplaşan silahlıların terror aktı üçün hazırlıq gördükləri barədə məlumat daxil olub. Xüsusi təyinatlı polis dəstələrinin həyata keçirdiyi əməliyyat nəticəsində 17 terrorçu öldürülüb, onların düşərgəsində çoxlu sayda silah və partlayıcı qurğu aşkar edilərək götürülüb.

## Kabil universiteti yaxınlığında partlayış törədilib



Kabil universiteti yaxınlığında partlayış törədilib, yaralananlar var. Bu barədə "Pajhwok" agentliyi məlumat yayıb.

Partlayış marşal Fəhim adına Milli Müdafiə Universitetinin girişində olub. "Pajhwok" agentliyi yaralıların olduğunu qeyd etsə də, onların dəqiq sayını açıqlamır.

"TOLO News" telekanalı Daxili İşlər Nazirliyinin nümayəndəsi Nüsrət Rahimiyə istinadla bildirir ki, partlayış nəticəsində dinc sakinlər arasında ölənlər olub. Onun sözlərinə görə, partlayışı terrorçu-intiharçı törədib.

**AZƏRTAC-ın materialları əsasında**

*Əsgər dostluğu*

# “Əl ki, əldən bərk yapışa, yorulmaz”

*Yolumuz Vətənimizin keşiyində ayıq-sayıq dayanan oğullarımızın yanınadır. Artıq düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsindəyik. İlk olaraq hərbi hissənin ərazisini gəzirik. Burada əsgərlərimizin sağlamlığının qorunması üçün müasir standartlara cavab verən idman şəhərciyi, sıra və döyüş hazırlığının yüksəldilməsi üçün taktiki sahə, sıra meydanı və mühəndis şəhərciyi var. Asudə vaxtlarında dincəlmək istəyənlər üçün oturacaqlar quraşdırılıb.*



Hərbi hissənin ərazisi ilə tanış olarkən iki əsgərin həmin oturacaqlarda əyləşərək, söhbət etdiyini gördük. Bizi görən əsgərlər ayağa qalxıb, özlərini təqdim edirlər - əsgər Bəhruz Daşdəmirli və əsgər Ramiz Qasımzadə. Vətənimizin keşikçiləri "Əsgəri xidmət sizə nəyi öyrətdi?" sualımıza cavab olaraq, döyüş hazırlığından, keçirilən dərs və məşğələlərdən söz açdılar:

- Hərbi xidmətə çağırıldığım səkkiz aydır, - deyə əsgər Bəhruz Daşdəmirli söhbətə başladı. - Ordu sıralarına həvəslə, yüksək ovqatla gəlmişəm. Hərbi formanı geyindiyim an necə məsuliyyətli və şərəfli vəzifəni daşıdığımı anladım. Gənc əsgər hazırlığı dövründən "N" hərbi hissəsində mühəndis-istehkamçı peşəsinə yiyələnmişəm. Hərbi xidmətə başladığım ilk günlərdən komandirlərimiz bütün qoşun növlərinin qələbənin qazanılmasında müstəsna rolu olduğunu bildirdilər. Döyüş əməliyyatlarının müvəffəqiyyəti bir çox hallarda mühəndis təminatı üzrə tapşırıqların vaxtında və dəqiq yerinə yetirilməsindən asılıdır. Onlar qoşunların hərəkəti üçün əlverişli şərait yaradır, düşmənin hərəkətini çətinləşdirmək məqsədi ilə kompleks tədbirlər həyata keçirirlər. Bacarıqlı zabitlərimizin köməyi ilə mütəmadi olaraq dərslərdə nəzəri və praktiki biliklərimizi artırırıq. Günlər keçdikcə bu peşənin sirlərini dərindən mənimsəyirik, üzərimizə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırıq. Asudə vaxtlarımız da səmərəli və maraqlı keçir.

Əsgər Ramiz Qasımzadə hərbi xidmət dövründə çoxlu dürüst və sadiq dostlar qazandığını bildirdi. "Ailə üzvlərimizi seçə bilməsək də, dostlarımızı seçmək bizdən asılıdır. Əsgər dostluğu uzunmüddətli olur. Hərbi xidmətdə çoxlu dost qazanmışam. Belə dostlarımdan biri də Bəhruzdur. Belə bir deyim var: “Əl ki, əldən bərk yapışa, yorulmaz”. Dostum da hər zaman mənə dayaqdır. Boş vaxtlarımızda Bəhruzla gün ərzində keçdiyimiz məşğələləri təkrarlayır, fiziki gücümüzü artırır, Vətənimizin hərb tarixi və qəhrəmanlarımız haqqında söhbətləşirik. Elə indi də Milli Qəhrəmanımız Mübariz İbrahimovun həyatından, işğal altında olan torpaqlarımızın azadlığı uğrunda canını fəda etməsindən danışırdıq. Mübariz daima döyüşə hazır idi. O, Vətənimizin, millətimizin taleyini özündən üstün tutdu. Şəhidimiz qəhrəmanlığı ilə adını təkcə Azərbaycanın tarixinə deyil, bütün azərbaycanlıların qəlbinə qızıl hərflərlə yazdı. Onun kimi igid oğullarımız bizə əsl nümunədir. Biz də çalışırıq ki, hər an döyüşə hazır olaq, Ali Baş Komandanın döyüş əmri ilə torpaqlarımızı düşmən tapdağından azad edək."

Əsgərlərimizin sözlərindən məlum oldu ki, onlar bacarıqlı komandirlərimizin sayəsində təcrübəli döyüşçü kimi formalaşaraq, hər an döyüşlərə atılmağa hazırdırlar.

**Baş leytenant
Ruslan HƏSƏNZADƏ,
"Azərbaycan Ordusu"**

# Naxçıvan Qarnizonunda hərbi qulluqçuların daşqaldırma birinciliyi keçirilib



*Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında daşqaldırma birinciliyi keçirilib.*

Yarışdan əvvəl Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Vahid Məmmədov hərbi qulluqçular arasında idmanın kütləviliyinə nail olunması, güclü idmançı və komandaların müəyyən edilməsi məqsədilə birinciliyin təşkil olunduğunu bildirərək idmançılara uğurlar arzulayıb.

"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan birincilikdə 16 komandadan 96 idmançı 6 çəki dərəcəsində mübarizə aparıb. Birincilik, daşqaldırma yarışlarının proqramına daxil olan birdən və təkanla qaldırma üzrə keçirilib.

Hər çəki dərəcəsində şəxsi yerlər hər iki növ çalışmada yığılmış ən çox xalla müəyyən edilib. Şəxsi hesabda 60 kq çəki dərəcəsində əsgər Cavad Əkbərli, 65 kq çəki dərəcəsində baş çavuş Rəşad Həsənov, 70 kq çəki dərəcəsində əsgər Kənan Cəlilov, 80 kq çəki dərəcəsində çavuş Elgün Əsgərov, 90 kq çəki dərəcəsində gizir Sərxan Zeynalov və 90 kq-dan yuxarı çəki dərəcəsində əsgər Allahverdi Allahverdiyev birinci yerə layiq görülüb.



Yekun nəticələrə əsasən komanda hesabında üçüncü yerdə motoatıcılar, ikinci yerdə xüsusi təyinatlılar, birinci yerdə isə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandası qərarlaşıb. İlk üçlüyə düşməyi bacaran qaliblərə Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərman, diplom və kuboklar təqdim edilib.

**Baş leytenant
Nəriman NƏCƏFOV,
“N” hərbi hissəsi**

# İdman

## Avropa çempionatında daha bir güləşçimiz medal qazanıb



Azərbaycanın daha bir güləşçisi İtaliyanın paytaxtı Romada keçirilən Avropa çempionatında medala sahib olub.

87 kiloqram çəki dərəcəsində mübarizə aparan İslam Abbasov qitə birinciliyində bürünc medalla kifayətlənib. İdmançımız üçüncü yer uğrunda görüşdə litvalı Eyvidas Stankeviçyusdan 6:2 hesabı ilə üstün olub.

İ.Abbasov ilk mərhələdə belaruslu rəqibi Kiril Maskeviçə 3:2, polşalı Arkadiuş Kuliniçə 3:1, Bolqarıstan təmsilçisinə 4:3 hesabı ilə qalib gələrək yarımfinala adlayıb. Ancaq finalın bir addımlığında son dünya çempionatının gümüş medalçısı olmuş macarıstanlı idmançıya məğlub olduğundan ikinci yarış günündə bürünc medal üçün güləşib. Litva təmsilçisinə qalib gələn İ.Abbasov Avropa üçüncüsü olub.

Beləliklə, Azərbaycan güləşçiləri ilk medal günündə üç dəfə fəxri kürsüyə qalxıblar. İ.Abbasovdan əvvəl komandamızın üzvlərindən Sənan Süleymanov (77 kq) qızıl, Eldəniz Əzizli (55 kq) bürünc mükafata yiyələnib.

## Rüstəm Orucovu yaponiyalı cüdoçu dünya reytinqində qabaqlayıb



Azərbaycan cüdoçusu Rüstəm Orucov dünya reytinq cədvəlində 73 kiloqram çəki dərəcəsindəki liderliyi əldən verib.

2019-cu ili birinci pillədə başa vuran cüdoçumuzu ən yaxın izləyicisi yaponiyalı Soiçi Haşimoto qabaqlayıb. Fevralın 8-9-da Parisdə keçirilmiş "Böyük dəbilqə" turnirinin qalibi olan yaponiyalı cüdoçu birinci pilləyə yüksəlib. Həmin çəki dərəcəsində digər cüdoçumuz Hidayət Heydərov da bir pillə geriləyərək dördüncü olub.

Komandamızın digər üzvlərindən Məmmədəli Mehdiyev (90 kq) Parisdə "Böyük dəbilqə" turnirində beşinci yeri tutduğu üçün iki pillə irəliləyərək beşinci yerdə qərarlaşıb. Elmar Qasımov və Zelim Kotsoyev (hər ikisi 100 kq) də mövqelərini bir pillə yaxşılaşdırıblar. E.Qasımov 14-cü, Z.Kotsoyev 16-cı yerdədirlər. Uşangi Kokauri (+100 kq) iki pillə geriləyərək 17-ci yerdə qərarlaşıb. Nicat Şıxəlizadə (66 kq) 21-ci, Orxan Səfərov (60 kq) 30-cu sırada yer alıblar.

Qadın cüdoçumuz İrina Kindzerska (+78 kq) da bir pillə geriləyib. Cüdoçumuz hazırda dördüncü yerdədir.

## Karate üzrə Azərbaycan yığması Dubayda Premyer Liqa turnirində iştirak edəcək



Karate üzrə Azərbaycan milli komandası fevralın 14-16-da Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçiriləcək Karate1 Premyer Liqa turnirində iştirak edəcək.

Mövsümün ikinci yarışında federasiyanın prezidenti Yaşar Bəşirovun rəhbərliyi ilə 14 idmançı mübarizə aparacaq.

Kumite yarışlarında kişilər arasında Firdovsi Fərzəliyev (60 kq), Rafiz Həsənov, Tural Ağalarzadə (hər ikisi 67 kq), Rafael Ağayev (75 kq), Ayxan Mamayev, Pənah Abdullayev, Turqut Həsənov (hər üçü 84 kq) güclərini sınayacaqlar. Qadınlar arasında Nuranə Əliyeva (50 kq), İlahə Qasımova (55 kq), İrina Zaretska (68 kq) və Fəridə Əliyeva (+68 kq) yarışacaqlar. Kata üzrə yarışlarda idmançılarımızdan yalnız Roman Heydərov çıxış edəcək. Dubay Premyer Liqasını idarə edən referilər arasında beynəlxalq hakimlərimiz Cahangir Babayev və Vüqar Kərimov da olacaq.

Bu nüfuzlu yarışda 85 ölkədən 571 karateçi mübarizə aparacaq.

**AZƏRTAC-ın
materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Oruc MUSTAFAYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 70
Nüsxə 3900